

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

4 dekabr 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 47 (3759)


# Azərbaycan dünyaya örnəkdir

**2025-ci ilə yekun vurmaqdayıq. Ötən il olduğu kimi, bu il də Azərbaycan dünyanın ən sabit, ən təhlükəsiz ölkələrindən biri olduğunu təsdiqləyir.**



## Ölkəmiz yenə yüksək təhlükəsizlik reytinqinə sahibdir

Son illərdə Cənubi Qafqazın geosiyasi mənzərəsində ən çox diqqətçəkən ölkələrdən biri məhz Azərbaycandır. Kiçik, amma strateji baxımdan mühüm mövqedə yerləşən ölkəmiz həm regional, həm də beynəlxalq miqyasda sabitlik, təhlükəsizlik və inkişaf baxımından əhəmiyyətli rol oynamaqdadır.

Əminliklə deyə bilərik ki, Azərbaycan özünün güclü iqtisadiyyatı, inkişaf etmiş infrastrukturu, müstəqil xarici siyasəti və sosial sabitliyi qoruması ilə Cənubi Qafqazda və daha geniş regionda sabitlik adasına çevrilib. Həm regional, həm də qlobal miqyasda sabitliyin qorunması istiqamətindəki səyləri ilə Azərbaycan müasir dünyada öz mövqeyini daha da möhkəmləndirir. Sabitliyin təmin edilməsi təkcə Azərbaycanın gələcəyi üçün deyil, həm də bütün Cənubi Qafqaz üçün mühüm əhəmiyyət daşıyır. Bu səbəbdən Azərbaycan sabitlik adası olmaqla yanaşı, digər ölkələrə də nümunə olacaq bir model təşkil edir.

> *Azərbaycanın sabitliyi, təhlükəsizliyi böyük sərvətdir*

Prezident İlham Əliyev ölkəmizdəki təhlükəsizliyin, əmin-amanlığın səbəbini dəyərləndirərkən qeyd edib ki, indi dünyanın hər bir yerində müharibələr, toqquşmalar, qarşıdurmalar hökm sürür: "Hər gün biz bunu görürük. Azərbaycan sabitlik adasıdır, təhlükəsizlik adasıdır. Bu da böyük sərvətdir və Azərbaycan xalqı bunu yaxşı bilir. Çünki biz müstəqilliyimizin ilk illərində çətin günlər yaşamışdıq".

Aparılan beynəlxalq araşdırmalara görə, Azərbaycan dünyada ən təhlükəsiz ölkələr siyahısındadır. Buna misal olaraq Beynəlxalq Sülh və İqtisadiyyat İnstitutunun araşdırmasını göstərə bilərik. İnstitut tərəfindən hazırlanan 2025-ci il üzrə Qlobal Terrorizm İndeksinə (Global Terrorism Index - GTI) əsasən, Azərbaycan dünyanın terror təhlükəsinin ən az olduğu ölkələrindən biri elan olunub.

"Qlobal Terrorizm İndeks"i reytinq sıralanması indeksləri terror hadisələri, ölümlər, ağır nəticələr, girovlar, terrorçuluqla mübarizə, terrorçuluğun araşdırılması effektivliyi və digər çoxsaylı göstəricilər üzrə hesablamalara əsaslanır.

Azərbaycan terror təhlükəsi üzrə qeyd olunan sıralamada "0,233" indekslə 2024-cü illə müqayisədə bir reytinq də yüksəlib. Ölkəmiz 1-dən 100-dək artan mümkün reytinq həddində dünyada terrorla bağlı ən təhlükəsiz ölkələrdən biri kimi yüksək reytinqə sahiblənib.

Beynəlxalq təşkilatların hesabatlarından göründüyü kimi, kifayət qədər həssas və mürəkkəb geosiyasi məkanda olsa da, uğurlu dövlət siyasəti nəticəsində bərqərar olmuş inkişaf, əmin-amanlıq, o cümlədən terrorçuluğa qarşı mübarizə sahəsində təhlükəsizlik orqanları tərəfindən görülən effektiv işlər sayəsində Azərbaycan son illər dünyada yüksək daxili təhlükəsizlik reytinqi qazanıb.

Azərbaycanın 2025-ci il üzrə Qlobal Terrorizm İndeksinin antiterror reytinqində ən təhlükəsiz ölkələr sırasına yüksəlməsinə səbəb, ilk növbədə, Prezident İlham Əliyevin yürütdüyü müstəqil siyasətdir. Vətən müharibəsinə qədər və eləcə də postmüharibə dönəmində baş verən hərbi-siyasi proseslər sübut etdi ki, ölkəmiz "qaynar qazan" hesab edilən Cənubi Qafqazda nəinki öz təhlükəsizliyini təmin edə bilib, həm də bütün regionda, eləcə də beynəlxalq müstəvidə əsas söz sahibinə çevrilib.

Azərbaycana verilən "ən təhlükəsiz ölkələrdən biri" statusu bir daha rəsmiləşmiş oldu. Bu da ölkədəki daxili sabitliyin, ictimai təhlükəsizliyin və vətəndaşların əmin-amanlıq içində yaşamasının beynəlxalq miqyasda təsdiqidir.

# Qlobal təşəbbüslərimiz dəstəklənir

## Azərbaycanın dünyada artan təsiri təsdiq olunur

**Həyata keçirdiyi müstəqil, çevik və qətiyyətli siyasət nəticəsində Prezident İlham Əliyev son 22 ildə Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu əhəmiyyətli dərəcədə artırıb. Onun rəhbərliyi ilə Azərbaycan təkcə regional deyil, qlobal miqyasda təşəbbüslər irəli sürən, beynəlxalq proseslərdə fəal mövqeyə malik ölkəyə çevrilib.**

Dövlət başçısının formalaşdırdığı siyasi kurs ölkənin xarici diplomatiyasının güclənməsi üçün möhkəm təməl yaradaraq Azərbaycanın dünya siyasi sistemində etibarlı tərəfdaş kimi tanınmasına səbəb olub.

Azərbaycanın yerləşdiyi geosiyasi məkan – Qərb və Şərqin kəsişməsi, enerji və nəqliyyat dəhlizlərinin keçdiyi strateji zona – ölkəmizə həm məsuliyyət, həm də geniş imkanlar verir. Prezidentin bu reallıqlara uyğun olaraq müəyyənləşdirdiyi xarici siyasət xətti ölkənin beynəlxalq təşkilatlarda mövqeyinin möhkəmlənməsinə yol açıb. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına və sonradan BMT-nin İqtisadi və Sosial Şurasına yüksək səs çoxluğu ilə seçilməsi, 120 dövləti birləşdirən Qoşulmama Hərəkatına sədrliyi uğurlu diplomatiyanın bariz nümunələrindəndir.

Son illər ölkəmiz enerji təhlükəsizliyinin təminində qlobal iştirakçıya çevrilib. Cənub Qaz Dəhlizi kimi nəhəng layihənin icrası Prezident İlham Əliyevin siyasi iradəsinin nəticəsi olaraq Azərbaycanın həm Avropa üçün etibarlı tərəfdaş olmasını, həm də iqtisadi gücünü artırmasını təmin edib. Qaz ixracı ilə bağlı əldə olunan son nailiyyətlər – Ukrayna və Suriyanın da bu siyahıya qoşulması – Azərbaycanın enerji strategiyasının geniş miqyasını göstərir. Hazırda ölkəmiz 14 dövlətə qaz ixrac edir və bu rəqəmin 20-yə çatdırılması hədəflənir.

Prezident İlham Əliyevin təşəbbüsləri iqtisadi diplomatiyadan daha geniş sahələri əhatə edir. Onun irəli sürdüyü regional əməkdaşlıq ideyaları ölkəmizin nüfuzunu artırmaqla yanaşı, region dövlətləri arasında yeni əməkdaşlıq modellərinin yaranmasına təkan verir. Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünə tamhüquqlu üzv qəbul olunması bu istiqamətdə böyük uğurdur və ölkəmizin regionlararası platformalarda rolunun artdığını təsdiqləyir.

Prezident İlham Əliyev beynəlxalq təşkilatlarla yanaşı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı kimi mühüm qurumlarda da ölkəmizin fəallığını yüksəldib. Onun qlobal çağırışlarla bağlı səsləndirdiyi fikirlər, irəli sürdüyü təşəbbüslər və əməkdaşlıq təklifləri müasir beynəlxalq münasibətlər sistemində böyük önəm daşıyır. Dövlət başçısı dünyanın müxtəlif regionlarında keçirilən ən yüksək səviyyəli tədbirlərin daim diqqət mərkəzindədir və qlobal proseslərin müzakirəsində aktiv iştirakı ilə seçilir.

Bütün bu nailiyyətlərin əsasında Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil xarici siyasət, regional və qlobal təşəbbüsləri, eləcə də dövlətin milli maraqlarının ardıcıl olaraq qorunması dayanır.

# Laçının azadlıq günü

## Prezident ildönümü ilə bağlı paylaşım edib

Prezident İlham Əliyev Laçının işğaldan azad edilməsinin 5-ci ildönümü ilə bağlı sosial şəbəkədə paylaşım edib. Paylaşımda "Zəfər Tariximiz: 1 Dekabr 2020-ci il Laçın" sözləri yer alıb.

Xatırladaq ki, Laçın 44 günlük Vətən müharibəsində qazanılan qələbə və 10 noyabr üçtərəfli bəyanatı əsasında 1 dekabr 2020-ci ildə Azərbaycana qaytarılıb.

# İqtisadi şaxələndirməyə növbəti töhfə

## Dövlət başçısı yeni istehsal müəssisəsinin açılışını edib

Prezident İlham Əliyev Bakının Qaradağ rayonunda "Matanat-A" şirkətinə məxsus "AZWOOL" mineral daş yunu zavodunun açılışında iştirak edib.

Ərazisi 10 hektar olan yeni zavodda ABŞ, Almaniya və Türkiyə istehsalı olan müasir avadanlıq quraşdırılıb. İllik istehsal gücü 1,5 milyon kubmetr olan müəssisədə məhsullar əsasən yerli xammaldan hazırlanır. Zavodun ümumi investisiya dəyəri 43 milyon manatdır. Layihənin reallaşdırılması üçün Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb. Bununla yanaşı, müəssisə avadanlıqların idxalı zamanı təxminən 4 milyon manat güzəşt əldə edib. Yeni istehsal sahəsində 180 iş yeri yaradılıb.

Prezident İlham Əliyev "Matanat-A" şirkətinin digər məhsulları ilə də tanış olub. Şirkət hazırda 200-dən artıq ticarət markası və 3 mindən çox çeşidlə istehsal aparır. Məhsullar "Made in Azerbaijan" brendi ilə xarici bazarlara ixrac olunur.

Dövlətimizin başçısı zavodu işə salıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qeyri-neft sektorunun şaxələndirilməsi və inkişafı istiqamətində aparılan işlər nəticəsində ölkəmizdə yeni-yeni istehsal sahələri yaradılır. Bütün bunlar isə, eyni zamanda, yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına böyük töhfə verir.

# Fərman və sərəncamlar

*Zərdab rayonunun Zərdab–Məlikumudlu–Çallı–Salahlı–Hüseynxanlı–Xanməmmədli avtomobil yolu əsaslı təmir olunacaq. Bununla bağlı Prezident İlham Əliyev dekabrın 1-də Sərəncam imzalayıb.*

*"Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 27 dekabr 2024-cü il tarixli Qanununun icrası ilə əlaqədar Azərbaycan Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilib. Bununla bağlı Prezident İlham Əliyev noyabrın 28-də Fərman imzalayıb.*

*Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçirilən VI İslam Həmrəyliyi Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikası idmançıları, onların məşqçiləri və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislər mükafatlandırılıb. Bununla bağlı Prezident İlham Əliyev noyabrın 26-da Sərəncam imzalayıb.*

Prezident İlham Əliyev noyabrın 26-da Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.


Nazir vətəndaşları dinləyib....................2
Etibarı, etimadı doğruldacaqlar............2
Şəhidlərin xatirəsinə turnir ...................3
Görünməz cəbhə.................................4

# Respublika Xəbərləri

### “Gəlin, sülhü qazanaq"

"Azərbaycan sabitlik, təhlükəsizlik və rifah adasıdır, biz onu gücləndirməyə davam edəcəyik". Prezidentin köməkçisi - Azərbaycan Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev xarici nəşrə açıqlamasında bildirib. Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin gücləndiyini deyən H.Hacıyev deyib: “Biz müharibəni qazandıq, indi də gəlin, sülhü qazanaq".

### Minsk qrupu ləğv edildi

Azərbaycanın və Ermənistanın ATƏT-in Finlandiya Sədrliyinə birgə müraciətindən sonra təşkilat Nazirlər Şurasının 2025-ci il sentyabrın 1-də qəbul edilmiş qərarına uyğun olaraq 2025-ci il noyabrın 30-da saat 23:59-da Minsk Prosesi və onun əlaqədar strukturlarının bağlanmasını yekunlaşdırıb. Bu barədə ATƏT-in bəyanatında bildirilib.

### Neftdən asılılıq aradan qalxır

Gələn ilin icmal büdcəsində Azərbaycanda qeyri-neft gəlirlərin payı cari illə müqayisədə 5 faiz bənd artaraq 63 faizə çatacaq. Demək olar ki, biz növbəti il icmal büdcəmizin üçdə ikisini qeyri neft-sektorun hesabına təmin edəcəyik. Maliyyə naziri Sahil Babayev Milli Məclisin plenar iclasında belə deyib. O, 2029-cu ilə qədər bu göstəricinin xərclər çərçivəsi daxilində 70 faizə çatdırılacağını planlaşdırdıqlarını bildirib.

### Regionun lideriyik

Bu günə qədər Azərbaycan hökuməti işğaldan azad edilmiş ərazilərə 22 milyard manata yaxın pul xərcləyib. Bu, Ermənistanın dövlət büdcəsinin gəlirlərindən iki dəfə, Gürcüstanın dövlət büdcəsinin gəlirlərindən isə 1,4 dəfə çoxdur. Bu fikirlər Milli Məclisin dekabrın 2-də keçirilmiş plenar iclasında səsləndirilib.

### Xankəndililər nə vaxt qayıdır?

Xankəndi şəhərində də orada daimi qeydiyyatda olan keçmiş məcburi köçkünlərin geri qayıtması istiqamətində işlər görülür. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən bildirilib ki, artıq Xankəndi və Kərkicahan sakinləri ilə bir neçə görüş keçirilib.

### Birgə iş axtarışı platforması yaradılır

Azərbaycan və Türkiyə vətəndaşları üçün birgə iş axtarışı platforması yaradılır. Bu platforma vasitəsilə Azərbaycanda iş axtaran şəxs Türkiyədəki özəl sektora vakant iş üçün müraciət edə biləcək. Həmçinin Türkiyə vətəndaşları da Azərbaycandakı özəl sektorda işəgötürənə eyni şəkildə müraciət etmək imkanına malik olacaq.

### Qarabağda təhsil də dirçəlir

İşğaldan azad olunmuş ərazilərdə 18 ümumi təhsil müəssisəsi fəaliyyət göstərir. Bu məktəblərdə 3902 şagird təhsil alır. Bu barədə Məktəbəqədər və Ümumi Təhsil Üzrə Dövlət Agentliyindən məlumat verilib. Bildirilib ki, sözügedən ümumi təhsil müəssisələrində 370 müəllim çalışır.

### Qəbələdə əmək yarmarkası

Qəbələdə əmək yarmarkası keçirilib. Yarmarkada 12 müəssisə tərəfindən turizm, aqrar, iaşə, sənaye və digər iqtisadi sahələr üzrə 200-dən çox vakansiya təqdim edilib. Ən çox vakansiya turizm sektoru üzrə olub. İşəgötürənlərin təqdim etdiyi iş təklifləri arasında əməkhaqqı 400–1600 manat aralığında olan vakansiyalar diqqət çəkib.

### Qayıdış davam edir

Noyabrın 28-də Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə 16 ailə olmaqla, 55 nəfər köçüb. Ağdam rayonunun Xıdırlı kəndində isə 48 nəfərdən ibarət 13 ailə, Zəngilan rayonunun Məmmədbəyli kəndində 33 ailə - 177 nəfər doğma yurdlarına qovuşub.

### Daha bir kənd yenidən tikilir

Hazırda Ağdam şəhəri ilə yanaşı rayonun Baş Qərvənd kəndinin tikintisi həyata keçirilir. Ümumi olaraq kənd üzrə 1245 ədəd fərdi yaşayış evi tikiləcək. Kəndin tikintisi iki mərhələdə aparılır. Birinci mərhələ üzrə layihələndirilən ərazidə 851 fərdi yaşayış evi tikiləcək.

# Nazir vətəndaşları dinləyib

## Müraciətlərin mütləq əksəriyyəti yerindəcə öz həllini tapıb

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov noyabrın 30-da və dekabrın 1-də Gəncə Şəhər Baş Polis İdarəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Gəncə şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla









yad edib.

Sonra Baş Polis İdarəsinin inzibati binasında Gəncə, Goranboy, Daşkəsən, Naftalan, Göygöl, Samux, Kəlbəcər, Xocalı şəhər və rayonlardan, eləcə də digər bölgələrdən qəbula gələn 384 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Nazir qəbula gələnlərin müraciətlərinin həlli istiqamətində zəruri addımların atılması və vətəndaş məmnunluğunun təmin olunması məqsədi ilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin mütləq əksəriyyəti yerindəcə öz həllini tapıb, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov DİN Daxili Qoşunlarının Gəncə şəhərində yerləşən hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və sosial-məişət şəraiti ilə maraqlanıb.

Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Sonda general-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Vətən müharibəsinin 42 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 362 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# Etibarı, etimadı doğruldacaqlar

## Daxili işlər naziri gənclərin sırasından seçim edib

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov noyabrın





27-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 166 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 9 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir Vilayət Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# İnam və güvən ünvanı

## Vətəndaş məmnunluğu xidmətimizin təməlidir

Sosial şəbəkə istifadəçisi Rəşad Zeynalov müraciətinə operativ baxılaraq obyektiv araşdırma aparılmasına görə Naxçıvan Şəhər Polis İdarəsinin İctimai Təhlükəsizlik Şöbəsinin əməkdaşlarına minnətdarlıq edir.

Vətəndaş Elcan İbrahimov Daxili İşlər Nazirliyinin “İnstagram” səhifəsinə təşəkkür mesajı yazaraq etdiyi müraciətinin müsbət həll olunmasına görə başda DİN rəhbərliyi olmaqla, Xətai RPİ-nin rəhbərliyinə və əməkdaşlarına təşəkkür edir.

Vətəndaş Adilə Süleymanova DİN-in “İnstagram” səhifəsinə təşəkkür mesajı yazıb. O, üzləşdiyi problemlə bağlı müraciətinə operativ baxılmasına və aparılan obyektiv araşdırmalara görə Səbail RPİ-nin 9-cu Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Salyan rayon sakini Firuzə Nuriyeva DİN-ə ünvanladığı təşəkkür məktubunda müraciətinə operativ baxılmasına və müsbət həll olunmasına görə DİN rəhbərliyinə minnətdarlıq edir.

# Şəhidlərin xatirəsinə turnir

## DİN-in cüdo üzrə açıq çempionatında qaliblər məlum olub

**Antiterror tədbirləri zamanı şəhid olan polis və daxili qoşunların əməkdaşlarının əziz xatirəsinə həsr olunan idmanın cüdo növü üzrə Daxili İşlər Nazirliyinin açıq çempionatı keçirilib.**









DİN-in İdman Cəmiyyəti və Əlahiddə Çevik Polis Alayının təşkilatçılığı ilə keçirilən turnirdə polis əməkdaşları ilə yanaşı, digər dövlət orqanlarının xüsusi rütbəli əməkdaşları da güclərini sınayıblar.

Yarışı izləyənlər arasında şəhidlərin ailə üzvləri, onların valideynləri, övladları, Nazirliyin və digər dövlət qurumlarının yüksək rütbəli əməkdaşları, Azərbaycan Cüdo Federasiyasının nümayəndələri və digər qonaqlar da olub. Yarışdan əvvəl Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Şəhid ailələrinin nümayəndələri Vətən uğrunda canlarını fəda etmiş oğullarının əziz xatirələrinin həmişə uca tutulduğunu və onların daim ölkə rəhbərliyinin xüsusi qayğısı ilə əhatə olunduqlarını vurğulayıblar.

Daha sonra yarışlara start verilib.

Qalib idmançılar medal, fəxri fərman və qiymətli hədiyyələrlə təltif ediliblər. DİN-in cüdo komandası çempionatın yekununda qalib gəldiyi üçün xüsusi kuboka sahib olub.

# İdeoloji söhbətlər aparılıb

## İntizama və qanunçuluğa əməl etməyin vacibliyi diqqətə çatdırılıb

Şəxsi heyət arasında ideoloji və mənəvi-psixoloji hazırlığın yüksəldilməsi, əməkdaşların sosial təşəbbüskarlığının artırılması, onların dövlətçilik, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, xidmətdə olduqları və xidmətdən kənar vaxtlarda etik davranış qaydalarına riayət etmələrinin təmin edilməsi, pis vərdişlərlə mübarizənin gücləndirilməsi DİN rəhbərliyinin diqqət mərkəzindədir.

Bu məqsədlə, Zərdab, Kürdəmir və İmişli şəhərlərində həmin rayonların polis və mühafizə qurumlarının, NBPİ-nin Dəmir Yolu İdarəsinin İmişli XPŞ-nin şəxsi heyəti, eləcə də Kürdəmir və İmişli "ASAN xidmət" mərkəzlərinə təhkim olunmuş əməkdaşları ilə (ümumilikdə 8 qurumdan 430-dan çox əməkdaş) növbəti görüşlər keçirilib.





Şəxsi Heyətlə İş İdarəsinin əməkdaşları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkənin dinamik inkişafını, Nazirliyin Kollegiya iclaslarında qeyd olunan aktual məsələləri, şəxsi heyətin xidmət zamanı və xidmətdən kənar vaxtlarda etik davranış qaydalarına, xidməti intizama və qanunçuluğa əməl etməyin vacibliyini, polisin cəmiyyətdə nüfuzunun artırılmasına dair mövzuları iştirakçıların diqqətinə çatdırıblar.

Qeyd olunub ki, hər bir əməkdaş polisin fəaliyyəti ilə bağlı sosial mediada mənfi rəyin formalaşmasının başlıca səbəbi olan halların aradan qaldırılmasına çalışmalıdır.

Əməkdaşlara həmçinin sosial şəbəkələrin cəmiyyətin şüuruna mənfi təsir etmə imkanları və yarada biləcək təhlükələr, onlardan istifadənin yolverilməzliyi, xidməti konfidensiallığı qorumalarının zəruriliyi ilə bağlı məlumat verilib, eləcə də korrupsiya hallarına qarşı mübarizəyə dair söhbətlər aparılıb, həmin təzahürlərin qarşısının alınması yolları izah edilib, onları maraqlandıran suallar cavablandırılıb.

Növbəti görüşlərin respublikanın digər şəhər və rayonlarının polis orqanları və mühafizə hissələrində davam etdirilməsi nəzərdə tutulur.

# Gələcəyin kursantları ilə görüş

## Təbliğat və təşviqat işləri davam edir

Daxili İşlər Nazirliyinin və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Zərdab, Kürdəmir, İmişli, Saatlı və Sabirabad rayonlarında yerləşən orta məktəblərin IX–XI sinif şagirdləri ilə görüşlər keçirilib. Tədbirlərdə iştirakçılara Daxili İşlər Nazirliyinin Polis Akademiyasında və Daxili Qoşunların Hərbi İnstitutunda təhsil imkanları, tədris prosesləri və daxili işlər orqanlarında xidmətin üstünlükləri haqqında ətraflı məlumatlar verilib. Həmçinin, məktəblilərə təhsil müəssisələrinin fəaliyyəti ilə bağlı videoçarxlar nümayiş etdirilib və məlumatlandırıcı bukletlər təqdim olunub. Görüşlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.





*Nizam Həmidov*
*polis mayoru*

# Unutmuruq, unutmarıq

## Vətən müharibəsi şəhidlərinin xatirəsi anılıb

Masallı Rayon Polis Şöbəsinin əməkdaşları Vətən müharibəsinin şəhidləri, DİN-in Daxili Qoşunlarının hərbi qulluqçuları Ramazan Vəliyevin və baş çavuş Cavad İbadovun anım günündə məzarlarını ziyarət edib, önünə tər güllər düzüblər.



Əziz xatirəsi yad edilən hərbi qulluqçularımızın və tarixi qələbənin əldə olunmasında canından keçmiş bütün qəhrəman oğullarımızın xatirəsinin daim yaşayacağı xüsusi qeyd edilib.

Çıxış edənlər şəhid hərbi qulluqçularımızın timsalında vətəni bütövlüyünə qovuşduranların, torpaqlarımızı göz bəbəyi kimi qoruyanların şərəfli döyüş yolunun gələcək nəsillərə nümunə olduğunu, xalqımızın mərd, vətənpərvər igidləri ilə fəxr etdiyini vurğulayıblar.

# Maarifləndirmə cəbhəmiz

## Sağlam gənclik və gələcək uğrunda birgə mübarizə aparırıq

Bakı şəhər Baş Polis İdarəsinin İctimai Təhlükəsizlik İdarəsinin və Nərimanov Rayon Polis İdarəsinin təşkilatçılığı ilə 251 və 39 saylı tam orta məktəblərdə "Narkomaniya və erkən nikaha yox deyək" mövzusunda maarifləndirmə tədbirləri keçirilib.





Görüşdə çıxış edən polis əməkdaşları mütəmadi təşkil olunan bu tədbirlərin məqsədinin yeniyetmə və gənclərin zərərli vərdişlərdən qorunması, onların sağlam həyat tərzinə təşviq edilməsi, eləcə də erkən nikahın fəsadları barədə məlumatlandırılmaları olduğunu bildiriblər.

Polis əməkdaşları şagirdlərə narkotik vasitələrin insan sağlamlığına və cəmiyyətə vurduğu zərərlər, bu istiqamətdə hüquq-mühafizə orqanları tərəfindən aparılan qətiyyətli mübarizə tədbirləri barədə danışıb, həmçinin erkən nikahın təhsildən yayınmaya və sosial fəsadlara səbəb olması, eyni zamanda internet mühitində mövcud olan kibertəhlükələr barədə ətraflı məlumat veriblər.

Şagirdlərə sağlam həyat tərzi sürmələri və mükəmməl təhsilə yiyələnərək doğru yol seçmələri tövsiyə olunub.

# Kiberpolis əməliyyat keçirdi

## "Zuerx" onlayn maliyyə dələduzluq piramidası ifşa olundu

Daxili İşlər Nazirliyi Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi onlayn dələduzluq piramidası olan "Zuerx" platformasına qarşı əməliyyat keçirib. Kiberpolisin həyata keçirdiyi əməliyyat-texniki tədbirlərlə qeyd edilən piramidanı idarə edən şəxslər 32 yaşlı Əli Qarazadə, 35 yaşlı Samir Ağazadə və 39 yaşlı Elmar Xosiyev müəyyən edilərək saxlanılıblar. Araşdırmalarla məlum olub ki, onlar "Whatsapp" və digər ani mesajlaşma şəbəkələrində yaratdıqları qruplara üzv olan 400 nəfərdən artıq şəxsə "Zuerx" piramidasına kriptovalyuta formasında yatırımlar etməklə böyük məbləğlərdə gəlir qazanacaqlarına dair yalan vədlər veriblər. Saxlanılan şəxslər insanlarla inam yaratmaq və platformaya yeni üzvlər cəlb etmək məqsədilə zərərçəkənlərin hesablarına bir neçə dəfə kriptovalyuta formasında simvolik məbləğlərdə ödənişlər də köçürüblər. Şirnikləndirici təkliflərə aldanan şəxslər isə daha çox gəlir əldə etmək niyyətilə həmin dələduzluq piramidasına böyük məbləğlərdə pul vəsaiti göndəriblər. Sonda isə zərərçəkənlərin külli miqdarda pulunu ələ keçirən dəstə üzvləri "Zuerx" piramidasının fəaliyyətini dayandırıblar.

Faktlarla bağlı Baş İdarədə araşdırmalar davam etdirilir. Sonda bir daha vətəndaşlara onlayn platformalarda qarşılaşa biləcəkləri və heç bir iqtisadi əsaslara söykənməyən piramida dələduzluq sxemlərinə, həmçinin kriptoyatırım adı altında yüksək faizli gəlir təklif edən tətbiqlərə inanmamağı tövsiyə edirik.

# Görünməz cəbhə

## Kiberpolis rəqəmsal risklərə sipərdir

Zaman keçdikcə cinayətkarlığın yeni formaları yaranır və bu dəyişimin ən nəzərəçarpan istiqaməti kibermәkanda baş verən hüquqazidd əməllərlə bağlıdır.

Texnologiyanın sürətli inkişafı, internetə çıxışın genişlənməsi və rəqəmsallaşmanın həyatın bütün sahələrinə nüfuz etməsi klassik cinayətkarlığa tamamilə yeni, sərhədsiz kiber sahə əlavə edib. Yəni görünməz bir cəbhə yaranıb. Bu yeni reallıq çağın ən aktual təhdidlərindən birinə çevrilərək həm fərdlərin, həm də dövlətin təhlükəsizlik gündəliyində xüsusi yer tutur.

DİN-in Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi artıq bir neçə ildir məhz belə təhlükələrin qarşısını almaq üçün fəaliyyət göstərir. Obrazlı desək, kiberpolis rəqəmsal risklərə qarşı sanki sipərdir. Təkcə bu ay ərzində aparılan əməliyyat-texniki tədbirlər nəticəsində ifşa edilən ciddi kibercinayətkarlıq faktları bunu söyləməyə əsas verir. Kiberpolis hazırda qanunsuz onlayn qumar platfomalarına qoşulan şəxslərin müəyyən edilməsindən tutmuş, bank kartı məlumatlarının oğuranması ilə məşğul olan kiberkriminal qrupların ifşasına, sosial şəbəkələrdə yalan vədlərlə vətəndaşları aldadaraq onların vəsaitlərini ələ keçirən dələduzların məsuliyyətə cəlb edilməsinə qədər geniş spektirdə mübarizə aparır.

Nəzərə alaq ki, sosial şəbəkələrdə saxta elanlardan, ucuz məhsul və xidmət vədlərindən, onlayn alış-veriş zamanı ödənişlərin mənimsənilməsi hallarının qarşısı-




nın alınması həm texniki, həm də hüquqi baxımdan son dərəcə mürəkkəbdir və yüksək peşəkarlıq tələb edir. Üstəlik, informasiya texnologiyaları sahəsində müəyyən bacarıqlara malik kibercinayətkarlar “ənənəvi” cinayətkarlardan bilik və fəaliyyət üsullarına görə ciddi şəkildə fərqlənirlər. Xaricdən idarə olunan qrupların mövcudluğu, hədəflərin planlı şəkildə müəyyən edilməsi bu cinayətlərin artıq mütəşəkkil xarakter aldığını göstərir.

Belə şəraitdə polisin gərgin əməyini, bu sahədə yüksək ixtisas və davamlı texnoloji hazırlıq tələb olunduğunu xüsusi vurğulamalıyıq. Elə buna görə də ifşa edilən hər bir kibercinayətkarlıq faktı kiberpolisin əsl peşəkarlıq göstəricisi sayılır.

Rəqəmsal dələduzluğun yayılmasının əsas səbəblərindən biri vətəndaşların diqqətsizliyidir. Xaricdən gələn şübhəli zənglər, kəşbek və uduş tələləri, onlayn alış-veriş zamanı kart məlumatlarının tam şəkildə təqdim olunması kimi hallar kiberdələduzlar üçün geniş imkanlar yaradıb. Təəssüf ki, bir çox insan kiçik xərclə böyük qazanc əldə etməyə çalışanda qurbana çevrilir.

Bütün bunların fonunda profilaktik və maarifləndirmə tədbirlərinin genişləndirilməsi kibercinayətkarlıqla mübarizənin ən vacib istiqamətlərindən biri kimi diqqət mərkəzində saxlanılır.

Daxili İşlər Nazirliyinin rəqəmsal təhlükəsizliyə dair məlumatlandırıcı materialları hazırlaması, media resurslarında xəbərdarlıq mesajlarının yayılması və əhalinin ayıq-sayıqlığının artırılması istiqamətində profilaktik tədbirləri gücləndirməsi internet istifadəçilərini daha məsuliyyətli davranmağa yönəldib. Ümid edirik bu qədər geniş maarifləndirici iş nəhayət internet istifadəçilərini virtual məkanda “havayı pendirin yalnız tələdə olduğuna” daha tez inandıracaq və beləliklə, kibercinayətkarlığın qurbanına çevrilmək ehtimalı azalacaq.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Qələbəni şəhidlərimizə həsr etdi

## Əməkdaşımız Vətənə çempion kimi qayıtdı

Dünya və Avropa çempionu, Əməkdar idman




ustası, Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və idman işçisi Eduard Məmmədov 21-30 noyabr tarixlərində Əbu-Dabidə qazandığı qələbə ilə adını dünya idman tarixinə qalib idmançı kimi həkk etməklə yanaşı, bayrağımızı ucaldıb, himnimizi səsləndirib. O, kikboksinqin WAKO versiyası üzrə dünya çempionatında "Master Class" kateqoriyasında 63 kq çəki dərəcəsində kikboksinqin "Light Contact" və "Kick Light" növlərində çıxış edərək hər iki versiya üzrə qızıl medal qazanıb.

"Light Contact" növündə Böyük Britaniyadan Singh Gurmare, Portuqaliyadan Cortes Emanuel, İtaliyadan Simone Calogero, "Kick Light" növündə isə İsveçdən Ahlvarsson Ola, Kanadadan Gallant Benjamin, İtaliyanı bu növdə də təmsil edən Simone Calogero qalib gəlib.

Beləliklə, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin İdman-təlim şöbəsinin rəisi polis polkovnik-leytenantı, Azərbaycan Kikboksinq Federasiyasının vitse-prezidenti E.Məmmədov WAKO üzrə 10-cu dəfə, ümumilikdə isə 30-cu dəfə dünya çempionu olub.

# Filmə çevrilən tarix

## “Qisas və qanun” polisin yazılı xatirələri əsasında çəkilib

1975-ci ildə SSRİ-nin, o cümlədən Azərbaycanın bir çox kinoteatrında yeni bir hind filmi nümayiş etdirildi. Bu, yaşlı, az da olsa orta nəslin hələ də xatırladığı “Qisas və qanun” filmi idi.

Film bizim tamaşaçılarımıza “Qığılcım” adı ilə də təqdim olunmuşdu. Bu, filmin əsl adının hind dilində “Şolay” (Şölə) olmasından qaynaqlanırdı.

Tamaşaçı vestern janrında, lakin Şərq sentimentallığının təkrarsız təsiri, həmçinin musiqi, döyüş səhnələri, qəddarlıq, dostluq, sadiqlik, qisas andı kimi xüsusiyyətlərlə zəngin olan filmi çox maraqla seyr edirdi. Xeyir və şərin əbədi mübarizəsi, sonda xeyirin çox halda həyatda olmasa da, ekranda mütləq qalib gələcəyinə inam tamaşaçı üçün bu filmi daha da baxımlı edirdi.

Lakin mövzumuz filmin çəkilişi, sənət nümunəsi kimi onun təhlil edilməsi deyil, filmdəki əsas mənfi obraz olan Qabbar Sinqh haqqındadır.

Məşhur ssenarist tandemi Səlim Xan və Cavid Əhtar ssenari axtarışlarında olarkən Hindistanın ilk baş naziri Cəvahirləl Nehrunun təhlükəsizlik xidmətinin keçmiş rəisi Xosrov Fəramərz Rüstəmcinin yazılı xatirələrinə rast gəlirlər.

Xosrov Fəramərz öz xatirələrində 1958-ci ildə Hindistanın Madhya Prades ştatında (əyalətində) polis rəisi işləyərkən bir hadisədən bəhs edir: “Uzun illərdir ki, yerli əhali günahları ucbatından tanrıların onlardan üz döndərdiyini, gözəgörünməz bir varlığı – kabusu onlara cəza göndərdiyini deyir. Onlar bu şərə nəinki qalib gəlməyi, hətta onunla mübarizə aparmağı belə ağıllarına gətirmirlər. Əhali baş verən cinayət, qətl, quldurluğu təlyin yazısı kimi qəbul edir. Elə kənd yoxdur ki, orada kimsə qətlə yeti-



rilməsin, elə yer yoxdur ki, orada soyğun olmasın, bu soyğun hətta sərnişin və yük qatarlarından da yan keçmir. Məndən (Xosrov Fəramərz) əvvəl işləmiş polis rəisləri hadisə yerində izlərin olmadığını bildirirlər, öldürülən şəxslərin yaxınları, yeni zərərçəkmişlər isə ifadə vermək istəmirlər. Baş verənləri tale yazısı kimi qəbul edib bununla yaşamağı yeganə düzgün yol sayırlar. Dindirilmiş şəxslərin gözlərində vahimə, ümidsizlik, qorxu hökm sürür. Kimsə heç nə bilmir. Hadisə yerinin protokolları boş kağızdan ibarətdir desək, yanılmarıq. Maddi sübutlar, o cümlədən patron gilizləri iş materiallarına əlavə olunmayıb. Hadisə yerində çəkilmiş bir neçə şəkil isə boz, anlaşılmaz predmetlərdən başqa heç nəyi əks etdirmir. İstintaq bir neçə aydır davam etsə də, hər hansı nəticəyə gələ bilmirik. Rasional düşüncə və təhsilimi saymasam, deyəsən sonda baş verən hadisələrin həqiqətən bir xəyali varlıq tərəfindən törədilməsini qəbul edəcəyəm. Lakin xəyali varlıq heç zaman “Colt Webley 455”dən (ingilis revolveri) istifadə etmir. Demək ki, bu bir insandır”.

Polis rəisi yanılmırdı. Bu hadisələri törədən şəxs Qabbar Sinqh Quccar idi!



**"Qisas və qanun" filmində Qabbar Sinqh obrazı**

Qabbar Sinqh 1926-cı ildə anadan olub. Əvvəlcə məşhur quldur Qəlyan Xanın dəstəsində olsa da, sonra ondan ayrılaraq, özü kimi canilərdən ibarət ayrıca dəstə yaradır, ətraf bölgələri, orada yaşayan insanları vahimədə saxlayır. Qətllər, bir çox halda səbəbsiz qətllər, soyğun və quldurluq törədir, dəfələrlə qurulmuş pusqulardan yan ötməklə hec bir vəchlə ələ keçmir.

Polis rəisi istintaqın ilkin mərhələsində hələ bu hadisələri törədən şəxsin məşhur quldur Qabbar Sinqh Quccar olduğunu bilmir. Yalnız sonrakı istintaq hərəkətləri, cəsarətli şahidlərin ifadələri həmin şəxsin Qabbar Sinqh Quccar olduğunu ortaya çıxarır. Lakin təşkil edilmiş əməliyyatlar, pusqular heç bir nəticə vermir.

Xosrov Fəramərz xatirələrində yazır: “O, sanki bizim harada və nə zaman nə edəcəyimizi öncədən bilirdi. Biz həmişə gecikirdik. Mən anlayıram ki, Qabbar Sinqhi tutmaq zaman məsələsidir, amma təəssüf ki, zaman yeni göz yaşları, yeni qarət, yeni qətl, yeni soyğunçuluq deməkdir. Gecikmək olmaz”.

Çoxsaylı əməliyyatlar nəticəsində polis rəisi Xosrov Fəramərz Qabbar Sinqhin dəstəsindən olan bir şəxsi yaxalaya bilir. İlkin mərhələdə hər vəchlə ifadə verməkdən boyun qaçıran həmin şəxs öz təhlükəsizliyinə təminat aldıqdan sonra danışmağa razılaşır.

Polis rəisi Xosrov Fəramərz Rüstəmci yazır: “Bu şəxsin ifadəsi əsasında biz çoxsaylı cinayətlər, onların törədilmə üsul və vasitələri, qarət edilmiş əşyaların sonradan haralarda, kimlərə satılması, eləcə də Qabbar Sinqhin daim dəyişdiyi düşərgələr haqqında məlumatlar əldə etdik. Məlumatlar onun təqsirini yetərincə sübut etsə də, Qabbarın yaxalanmasına yardımçı ola bilmirdi. Dindirmənin nəticəsində mən belə anladım ki, Qabbar Sinqh kimsəyə inanmır və etibar etmir. Ayın 14-də mən yenidən dindirmə keçirdim. Nəticədə aydın oldu ki, Qabbar Sinqh öz cəzasızlığına əmindir. Bu əminlik onun daha da sərbəst hərəkət etməsinə şərait yaradır”.

Bir müddət sonra Qabbar Sinqh dəstəsilə gecələdiyi bir kənddə pusquya salınaraq həbs edilir.

Polis rəisi Xosrov Fəramərz Rüstəmci yazır: “Bu bir uğur idi. İllərlə izinə düşdüyümüz amansız qatil və quldur Qabbar ələ keçmişdi.

*(Ardı gələn sayımızda)*

*İsmət Süleymanlı*

# Yetirməmiz Avropa çempionu oldu

## DİN İdman Cəmiyyətinin daha bir uğuru

Azərbaycan boksçusu Sübhan Mamedov (50 kq) Macarıstanın paytaxtı Bu-



dapeştdə keçirilən U-23 Avropa çempionatının qalibi olub. Millinin lideri finalda Maksim Rudiki (Ukrayna) məğlub edib. Hər 3 raundu xeyrinə bitirən Mamedov yekunda 4:1 (28:29, 29:28, 29:28, 30:27, 30:27) hesabı ilə qalib gələrək Avropa çempionu tituluna yiyələnib.

Beləliklə, Elbrus Rzayevin rəhbərlik etdiyi milli komanda Avropa çempionatını 3 medalla başa vurub. Mamedovdan öncə Tağı Nəsibov (60 kq) və Səbuhi Əlizadə (+90 kq) bürünc mükafata sahib olub.

Qeyd edək ki, Avropa çempionatında 33 ölkədən 271 boksçu mübarizə aparırdı.

# Polis çağırış edir

## Qış mövsümünə hazır olmalıyıq

Qış fəslinin gəlişi ilə əlaqədar nəqliyyat vasitələrinin texniki vəziyyətinə diqqət yetirməlidir. Baş Dövlət Yol Polisi İdarəsi qış ayları üçün xarakterik olan əlverişsiz hava şərtlərini nəzərə alaraq, nəqliyyat vasitələrinin sahiblərini qabaqlayıcı tədbirlər görməyə, avtomobillərini mövsümə uyğun şinlərlə təchiz etməyə, xarici işıq cihazlarının, şüşə silgəclərinin, isitmə sistemlərinin sazlığını nəzarətdə saxlamağa çağırır. Unutmaq olmaz ki, avtomobilimizin sazlığı istənilən hava şəraitində mənzil başına rahat və təhlükəsiz çatmağımız üçün ən etibarlı zəmanətdir.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik